## Şəlalə Ana HÜMMƏTLİ - 60

# ÇƏMƏNZƏMİNLİŞÜNASLIQDAN SALMAN MÜMTAZA GEDƏN YOL

## (Şəlalə Ana Hümmətlinin elmi yaradıcılıq yolu)



Elm universal dəyərdir. O, sərhədləri, hüdudları aşır və insanlığı birləşdirən ən güclü vasitəyə çevrilir. Elmdə iz qoymuş hər bir alim bu ümumbəşəri prosesin bir hissəsidir. Onların yaratdıqları ideyalar bəşəriyyətin ümumi sərvətidir. Buna görə də belə alimlərin irsinə sahib çıxmaq, onu qorumaq və gələcək nəsillərə ötürmək hər bir cəmiyyətin mənəvi borcudur. Elmi irsin qorunması, əsərlərin, tədqiqatların və ideyaların tədqiqi, həm də gələcəyə hazırlanmaqdır. Hər bir böyük alim özündən sonra davam etdirilməsi zəruri olan bir yol qoyur. Bu yolu davam etdirmək, onun ideyalarını yerinə yetirmək və müasir dövrə uyğunlaşdırmaq elmi tərəqqinin əsas şərtidir.

Tarix boyu insan düşüncəsinin inkişafı, həyat tərzinin dəyişməsi və sivilizasiyasının formalaşması elmin nailiyyətləri ilə sıx şəkildə bağlı olmuşdur. Hər dövrün öz mütəfəkkirləri, ixtiraçıları, alimləri olmuşdur və onların fəaliyyəti sayəsində cəmiyyət yeni mərhələlərə qədəm qoymuşdur. Elmdə iz qoymaq - insan zəkasının ən yüksək səviyyəsinə yüksəlmək, zamanın çərçivəsini aşaraq gələcəyə təsir etmək deməkdir. Elmdə iz qoymuş bir alimin yaradıcılığını yüksək qiymətləndirmək, insan düşüncəsinin və zəhmətinin ucalığını anlamaqdır. Belə alimlərin yaradıcılığı, onların elmi irsi və insani keyfiyyətləri tədqiqatçılar üçün örnəkdir. Elm sahəsində böyük uğurlara imza atan bir alimin yaradıcılığını yüksək qiymətləndirmək, əslində onun şəxsiyyətinə, zəhmətinə və insanlığa verdiyi töhfələrə ehtiram əlamətidir. Bu dəyərləndirmə təkcə bir fərdin fəaliyyətinə hörmət deyil, bütövlükdə elmin və mədəni tərəqqinin ucaldılması kimi qəbul edilməlidir.

Hər bir alim elmə yalnız bilik deyil, həm də düşüncə tərzi, fəlsəfi baxış və yaradıcılıq ruhu gətirir. Onun fikirləri, araşdırmaları və tapıntıları dövrünün hüdudlarını aşaraq gələcək nəsillərə yol göstərir. Belə bir alim, sadəcə elmi faktları toplayan şəxs deyil, həm də yeni elmi istiqamətlər yaradan, mövcud bilikləri təkmilləşdirən, dünyanı fərqli şəkildə dərk etməyə imkan verən yaradıcı bir şəxsiyyətdir.

Əslində elmdə iz qoymaq asan məsələ deyildir. Bu, illərlə davam edən zəhmətin, səbrin, tədqiqatın və qətiyyətin nəticəsidir. Böyük alimlər həyatlarını elmə həsr edir, hətta şəxsi rahatlıqlarından belə keçərək, yalnız elm naminə çalışırlar. Onların əsas məqsədi şöhrət qazanmaq yox, həqiqəti tapmaq, cəmiyyətin inkişafına xidmət etmək olur. Alim yeni ideyalar irəli sürərkən yalnız məntiqi düşünmür, həm də hiss edir. Bu hiss bilik axtarışının daxili ehtirası, tapıntı sevinci (əlyazmalarla işləməyin nəticəsi heç kəsə məlum olmayan naməlum tapıntıların əldə olunması sevincini yaşamaq. Bu sevinci yaşayan ancaq bu işi görən nadir adamlardır), elmə olan sevgi onu fərqləndirən əsas xüsusiyyətdir. Elmi yaradıcılıq prosesi həm ağlın, həm də qəlbin işidir. Belə bir alimin yaradıcılığı həm nəzəri, həm də praktik əhəmiyyət daşıyır. Onun tədqiqatları bəzən yeni elmi sahələrin yaranmasına təkan verir, bəzən isə mövcud problemlərə yeni prizmadan yanaşma gətirir.

Azərbaycan elmində milli-mədəni irsin qorunması və geniş ictimaiyyətə çatdırılmasını təmin etmək istiqamətində mühüm addımlar atılmışdır. Bu istiqamətdə klassik ədəbi irsin öyrənilməsi, əlyazma mənbələrinin tədqiqi və mətnşünaslıq problemlərinin araşdırılması ilə uzun illər məşğul olmuş tədqiqatçı alim Şəlalə Ana Hümmətlinin elmi yaradıcılığında Yusif Vəzir Çəmənzəminlidən başlayaraq Salman Mümtaz və s. şəxsiyyətlərin yaradıcılıq irsinin orijinal əlyazmaları dayanır. Tədqiqatçı - alim özündə bir tarixi, bir mədəniyyəti əks etdirən bu əlyazma mətnlərini böyük zəhməti və səyi nəticəsində arxivlərdən, şəxsi kolleksiyalardan və müxtəlif mənbələrdən toplayaraq onların elmi təsnifatını aparmış, mətn fərqlərini müəyyənləşdirmiş, transfoneliterasiyasını həyata keçirmiş və nəticədə bu nümunələri geniş ictimaiyyətə təqdim etməyə müvəffəq olmuşdur. Şəlalə Ana Hümmətlinin tədqiqatları yalnız əlyazmaların üzə çıxarılması ilə məhdudlaşmır. O həm də bu materiallar əsasında mətnşünaslıq, mənbəşünaslıq və ədəbi irs problemlərinə dair yüksək elmi nəticələr irəli sürmüşdür.

Şəlalə Ana Hümmətli mətn variantlarını müqayisəli şəkildə təhlil edərək, müəllif mətnlərinin dəqiqləşdirilməsi, mənbələrin sistemləşdirilməsi və əlyazma nüsxələrinin elmi nəşrə hazırlanması prinsiplərini formalaşdırmışdır. Şəlalə Ana Hümmətli neçə-neçə elmi kitabların, məqalələrin və konfrans materiallarının müəllifidir. Onun əsərləri həm ölkə daxilində, həm də xaricdə dərc olunmuş, Azərbaycan ədəbiyyatşünaslıq elminə sanballı töhfələr vermişdir.

Bildiyimiz kimi, əlyazmalar xalqın mənəvi yaddaşını, milli kimliyini və ədəbi-mədəni irsini yaşadan mühüm mənbələrdir. Onlar təkcə dövrlərin deyil, həm də milli düşüncənin inkişaf mərhələlərini özündə əks etdirən canlı sənədlərdir. Müasir dövrdə əlyazmaların toplanması, tədqiqi və geniş ictimaiyyətə çatdırılması istiqamətində aparılan işlər filologiya elminin mühüm sahələrindən birinə çevrilmişdir. Hər bir əlyazma mətnləri özündə bir tarix, bir mədəniyyət və bir bilik əks etdirir. Görkəmli mətnşünas akademik Möhsün Nağısoylu qeyd edirdi ki, əlyazmaların toplanması və mühafizəsi sahəsində illərin sınağından uğurla çıxan elmi müəssisənin üzərinə Azərbaycan mədəniyyətinin dünyada təbliği kimi məsuliyyətli vəzifə düşür. Çünki hər bir əlyazma mətnləri özündə bir tarix, bir mədəniyyət və bir bilik əks etdirir. Bu sahədə ardıcıl tədqiqat fəaliyyətini davam etdirən alimlərdən biri də f.d., dos. Şəlalə Ana Hümmətlidir. O, uzun illər ərzində Azərbaycan ədəbiyyatı tarixində silinməz iz qoymuş şəxsiyyətlərin - Yusif Vəzir Çəmənzəminli, Salman Mümtazın yaradıcılıq irsini əks etdirən əlyazmaların aşkarlanması, sistemləşdirilməsi və geniş elmi ictimaiyyətə çatdırılması istiqamətində mühüm işlər görmüşdür. Ş.A.Hümmətlinin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri klassik və maarifçi dövr ədəbiyyatının əlyazma mənbələrinin müəyyənləşdirilməsi, mətnlərin müqayisəli təhlili, variantların araşdırılması və mətnşünaslıq baxımından dəqiqləşdirilməsidir. Onun əlyazmalar üzərində apardığı tədqiqatlar yalnız konkret müəlliflərin irsinin bərpası baxımından deyil, bütövlükdə Azərbaycan ədəbiyyatşünaslıq bazasının zənginləşməsi üçün də böyük əhəmiyyət daşıyır.

Şəlalə xanım istər Y.V. Çəmənzəminlidən başlayaraq Salman Mümtaz irsinə o qədər dərin sevgi ilə yanaşmışdır ki, bu axtarış işlərində onun üçün bütün qapılar taybatay açılmışdır, desək, yanılmarıq. Bu axtarış işlərində böyük səbr, böyük səy, böyük enerji, böyük güc sərf olunmuşdur. Axtara-axtara daha dərin qatlara enən bu mətnşünas alim Çəmənzəminlidən başlayaraq Salman Mümtaz yaradıcılığına qədər qaranlıq və sirr qalan məqamları ortaya çıxara bilmişdir. Məhz buna görə onun araşdırdığı əsərlər az qala Y.V.Çəmənzəminli, Salman Mümtaz qədər ədəbiyyatşünaslığımıza dərin töhfələr vermişdir. Yusif Vəzir Çəmənzəminlinin naməlum əsərlərini ortaya çıxara bilən Ş.A.Hümmətli lazım gəldikdə yaranan yersiz mübahisələrin cavabını belə öz dəyərli araşdırmaları ilə, yeni tapıntıları ilə verə bilmişdir. Bu gün də Ş.A.Hümmətlinin ortaya qoyduğu kitablar öz dəyəri, öz çəkisi ilə seçilir.

Ş.A.Hümmətli özünün "Türk dünyasının mümtaz oğlu Mümtaz" kitabında ulu öndərimiz Heydər Əliyevin bir fikrini haqlı olaraq vermişdir: "Ədəbiyyat, mədəniyyət... həmişə fədakarlıqdan doğan bir anlayışdır. Ədəbiyyatı, mədəniyyəti, bədii əsərləri yüksək incəsənət nümunələrini yaradan insanlar həmişə fədakar olurlar." Bu fikri Şəlalə Ana Hümmətliyə də şamil etmək olar. Doğrudan da, Ş.A.Hümmətli araşdırdığı Y.V.Çəmənzəminlidən başlayaraq Salman Mümtaz yaradıcılığını tədqiq etməyə həsr edən fədakar alimdir.

Bir az da Şəlalə Ana Hümmətlinin həyat və elmi fəaliyyətini, keçdiyi ömür yolunun səhifələrini vərəqləyək:

Şəlalə Ana Hümmətli (Şəlalə Qabil qızı Hümmətli) BDU- nun Filologiya fakültəsini bitirmişdir.

1997-ci ildən AMEA - da çalışır. 2014-cü ildə "Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri" mövzusunda dissertasiya müdafiə etmişdir.

AJB, Miras İB-nin Türkiyə İLESAM-ın üzvüdür. Beynəlxalq ədəbi müsabiqələrin xüsusi mükafatlarına, Dünya İletişimçiler Dərnəyinin "Türk Dünyasına xidmət" mükafatı və diplomuna layiq görülüb. "Şuşa ili"ndə AMEA Humanitar Elmlər Bölməsinin Fəxri Fərmanı ilə (2022) təltif edilmişdir. Əsərləri Azərbaycan, Türkiyə, Ukrayna və başqa ölkələrin elmi dərgi və antologiyalarında dərc olunmuşdur. Hal-hazırda "Salman Mümtazın elmi-ədəbi və əlyazma irsi" adlı doktorluq mövzusu üzərində çalışır.

Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "İti qələm" fəxri diplomuna və Mövlanə Cəlaləddin Ruminin 800 illik yubileyinə həsr olunmuş Beynəlxalq müsabiqənin və Beynəlxalq Rəzəvi şeir festivalının xüsusi mükafatına layiq görülmüşdür.

11 kitabın, 100-ə yaxın elmi-publisistik məqalənin müəllifidir. Dəyərli alimin ədəbiyyatşünaslıq elminə verdiyi töhfələr üçün qiymətli kitablarının bəzilərini nəzərdən keçirməyə lüzum vardır. Şəlalə Ana Hümmətli "Bilənlərə salam olsun" silsiləsindən I kitabını - "7 kitabdan biri, yaxud Saliklikdən arifliyədək" (Firidun Qurbansoy - 50) kitabında istedadlı yazıçı, gözəl alim Firidun Qurbansoyun yaradıcılığına həsr etmişdir.

"Y.V.Çəmənzəminlinin elmi-ədəbi irsi yeni faktların işığında" "Bilənlərə salam olsun" silsiləsindən II kitabdır. Bu kitabda müəllif görkəmli yazıçı, böyük alim Y.V.Çəmənzəminlinin yeni faktların əks olunduğu müxtəlif sənədlərin müəyyən hissəsini faktlarla, sənədlərin dili ilə nəşr etdirmişdir. Bu kitabda Yusif Vəzirin çəmənzəminşünaslığa və elmi-ədəbi ictimaiyyətə məlum olmayan əlyazmalardan, "Zarəsb" gizli imzası və həmin imza ilə qələmə aldığı məqalələrdən və s. ilk dəfə olaraq söz açılır.

*(Davamı 7-ci səhifədə)*

KREDO
№ 02 (1296) 09 yanvar 2026-cı il

# ÇƏMƏNZƏMİNLİŞÜNASLIQDAN SALMAN MÜMTAZA GEDƏN YOL

## *(Şəlalə Ana Hümmətlinin elmi yaradıcılıq yolu)*

*(Əvvəli 3-cü səhifədə)*

"Bilənlərə salam olsun" silsiləsindən III kitabda isə görkəmli mətnşünas alim, akademik Möhsün Nağısoylunun elmi-ədəbi yaradıcılığı qələmə alınmışdır.

Şəlalə Ana Hümmətlinin "Bilənlərə salam olsun!" silsiləsindən "Türk dünyasının dəyərləri" adlanan 4-cü kitabında Azərbaycan-Türkiyə qardaşlığına dair, böyük şəxsiyyətlər, görkəmli elm və mədəniyyət xadimləri dəyərli insanlar barədə qələmə aldığı məqalələrdən bir qismi (24 məqalə) verilmişdir. Bu kitaba Şəlalə Ana Hümmətlinin Şanlıurfaya, Mövlanə Cəlaləddin Rumiyə, Yunis Əmrəyə həsr etdiyi 4 şeiri də əlavə edilmişdir.

2014-cü ildə Ş.A.Hümmətlinin "Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri" monoqrafiyası nəşr etdirilmişdir. Bu kitabda XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq yeni faktlar əsasında geniş və sistemli şəkildə tədqiq edilmişdir. Şəlalə xanım ilk dəfə olaraq Y.V.Çəmənzəminli ilə əlaqədar yeni faktları, çəmənzəminşünaslığa məlum olmayan Y.V.Çəmənzəminlinin gizli imzasını, naməlum əsərlərinin, elmi məqalələrinin tərcümələrinin, qiymətli əlyazmalarını, arxiv sənədlərini üzə çıxarmışdır.

2023-cü ildə Qırğızıstanın Bişkek şəhərində Ş.A.Hümmətlinin "Türk dünyasının mümtaz oğlu Salman Mümtaz" kitabı nəşr olunmuşdur. Bu kitabda repressiya illərində itmiş və arxivlərdən toplayıb transfoneliterasiya etdiyi "100 şair" təzkirəsindən və Salman Mümtazın hazırladığı və bugünədək bizə məlum olmayan "Ədəbi lüğət"ndən bəhs edilir. Bu kitab Ş.A.Hümmətli üçün bir ilk deyil, Salman Mümtaz irsinin gizli qalmış məqamlarının öyrənilməsində bir mayakdır.

Şəlalə Ana Hümmətli həm də dərin məzmun daşıyan qiymətli şerlərin toplusu olan "Bir gün şeirə susasam" ktabının müəllifidir. Sevindirici haldır ki, müəllifin bu kitabda yer almış iki şerinə - "Urfa" və "Dərvişəm, Dərviş Yunusum" - adlı şerlərinə türkiyəli bəstəkar Ərdoğan Tozoğlu tərəfindən mahnı bəstələnmişdir.

Bu siyahıya hələ müəllifin, adını çəkmədiyimiz neçə-neçə qiymətli, dəyərli kitab və məqalələrini daxil etmək olar. Ş.A.Hümmətliyə getdiyi bu yolda bitib-tükənməyən böyük qüvvə, enerji, səbr və təmkin arzu edirik.

*Mətanət YAQUBQIZI,*
***AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent.***